Şuşa–Xankəndi yolunda...

Artıq neçə gündür ki, Laçın yolunda tarixi hadisələr yaşanır. Yolun Xankəndiyə gedən yolunun girişində ictimai fəallarımız dinc etiraz aksiyası keçirirlər. Konkret tələblər və şüarlar səsləndirilir, azərbaycanlı ekoloqların təbii sərvətlərimiz olan ərazilərdə sərbəst monitorinq aparmaları üçün süni əngəllərin götürülməsi, Azərbaycan təbiətini istismar edən separatçı ünsürlərə "Dur!" deyilməsi tələb edilir. Bu etiraz həm də rus sülhməramlılarının separatçıların özbaşınalıqlarına göz yummasına görədir, onlara ünvanlanan tələblərdir. Sülhməramlıları birtərəflilikdən bitərəf olmağa səsləyən aksiyalar tələblər yerinə yetirilənədək davam edəcək.

Məni bu aksiyada təsirləndirən nə idi?

Məni də bir iştirakçı kimi bu aksiyada duyğulandıran, təsirləndirən nədir? Aksiyanın ətrafında, fövqündə görünən açar nöqtələr daha dolğun, təsirli məzmun təşkil edir.

İlk növbədə, rus sülhməramlıları ilə üzbəüz dayandığımız, haqlarımızı açıq şəkildə tələb etdiyimiz anda içimizdə zərrə qədər narahatlığın, qorxunun olmamasını qeyd edim. Çünki XTQ-nin igid hərbçiləri sağdan, soldan bütün ümumi prosesə nəzarət edirdilər. Bizə daxilən rahatlıq verən onların qartal baxışları, məğrur görünüşləri, əlləri tətikdə hazır vəziyyətdə olması idi.

Bu 80-ci, 90-cı illər deyil axı, ay istədiyini əldə etməyə çalışan rus və ermənilər! 2022-ci ildir.

Qarşınızda dayanan məzlum, tabe, müstəmləkədə olan azərbaycanlılar deyil. Qalib azərbaycanlılardır!

Hələ aksiyada səslənən milliyyətçi-vətənpərvər musiqiləri demirəm. "Mənəm, mənəm Türk, önümə gələn hürk!" sözləri ilə yazılan cənginin sədaları düz Xankəndiyə– Vitali Balasanyanın, Ruben Vardanyanın qulağına çatırdı. Əminəm ki, bizim qəhrəmanlıq musiqilərimiz onları yatmağa qoymur. Hələ ictimai fəallarımızla əl-ələ tutub yallı getdiyimiz möhtəşəm anları demirəm. Bu birlik, həmrəylik yallısını görüntülərdən izləyən separatçıların, əminəm ki, olan-olmaz ağlı da başından çıxır, ürəyi yerindən qopur. Düşmən yaxşı bilir ki, Şuşada yallı gedən üçün Xankəndidə eynisini təkrarlamaq bir içimlik sudur. "Cəsur ürək" filmində şotland xalq qəhrəmanı Vilyam Volonsa xəyanət edən düşmənlərin gecə yata bilməməsi, ölümlərinin yuxularına girməsi gözümün önünə gəldi. İndi Arayiklər, Balasanyanlar da Şuşanın ətəyindən Xankəndinin üstündən gələn musiqi sədalarının gurultusuna yata bilmirlər. Yuxularına "Yaşma"nın qəhrəmanları girir. Aksiyada teleqram kanallarını incələyirdim. Bir də gördüm ki, separatçıbaşı Arayik Arutyunyan İrəvandan Xankəndiyə onlayn toplantı keçirib. Biixtiyar gülmək məni tutdu. "Ekoloji terrora son" aksiyası başlanan gündən Xankəndiyə ayağı kəsilib, gələ bilmir, məcbur qalıb "zoom" iclas keçirir. Gör nə günlərə qaldın, ay Arayik. Məşhur bir rus məsəlində deyilir: Başından yuxarı hoppana bilməzsən!" Əsl Arayik kimilər fəsiləsinə aid məsəldir. Sən Şuşada özünə qondarma andiçmə edəndə, Azərbaycanı Birinci Qarabağ müharibəsindəki məğlub nəticələrlə hədələyəndə görəcəyin bunlar olmalı idi. İndi bütün daşnaklar daş atıb, başlarını tutublar. Çünki Ali Baş Komandan onları sözün həqiqi mənasında heç nə edib atdı bir kənara.

Şuşada, Xankəndiyə gedən yoldakı aksiyada xəyala dalıb bunları fikirləşirdim ki, təbiətin də mənim düşündüklərimi təsdiqlədiyinin şahidi oldum. Məşhur mahnıda deyilən, "Şuşanın dağları, başı dumanlı" sözlərinin əyani görüntüsünü görmürəm. Hava soyuq olsa da, duman, çən yoxdur. Üzüaşağı – Xankəndiyə, Xocalıya doğru baxıram ki, duman ordakıların başlarının üstünü alıb. Sanki hava da təsdiq edir ki, bəli, Şuşanın dumanlı günləri artıq bitib. Xankəndinin başının üstünü alan duman isə düşmənə göz dağı, onların sonu, bitdiyi nöqtədir. Bu duman separatçı tör-töküntüləri də qabağına qatıb aparacaq və Pənah Əli xanın yaylaq yeri olan Xankəndi gün işığına çıxacaq. O günlər uzaqda deyil!

Anar TURAN, "Xalq qəzeti"

Ekspert rəyi

Fatimə Hacıbəyli,
"Vəfa" Sosial İctimai Birliyinin sədri



– Ermənilər Azərbaycanın torpaqlarını qanunsuz istismar edir, təbii sərvətlərimizi daşıyıb dəyər-dəyməzinə satır, necə gəldi, istismar edirlər. Onların bu əməli cinayətdir, oğurluqdur. Bu cür qanunsuz hərəkətlər Azərbaycanın ətraf mühitinə və bütövlükdə, regionun ekosisteminə mənfi təsir göstərir. Onlar bu ekoloji terrora son qoymayınca, bizim ekoloqları monitorinq üçün əraziyə buraxmayınca aksiyalarımız davam edəcək.

Artıq neçə gündür ki, təşkilatımızın üzvləri ilə aksiyalara qatılmışıq. İstəyirik ki, Azərbaycanın qeyri-hökumət təşkilatları (QHT) nümayəndələrinin Qarabağda Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyəti zonasında keçirilən etiraz aksiyasına dünya ictimaiyyəti də səssiz qalmasın.

Biz azərbaycanlı mütəxəssislərin dövlətimizə məxsus yataqların qanunsuz istismarı ilə bağlı monitorinq aparmaq üçün əraziyə buraxılmamasına etiraz edirik. Bunun özbaşınalıqdan başqa adı yoxdur.

Bildiliyimiz kimi, yaxın günlərdə mədənlərin müşahidəsi zamanı faydalı qazıntı yataqlarına, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarına yerində baxış və müxtəlif istiqamətlər üzrə monitorinq, əmlakın kadastr uçotunun təşkili, ətraf mühitə, yeraltı və yerüstü su mənbələrinə potensial zərərin və risklərin qiymətləndirilməsi nəzərdə tutulmuşdu. Lakin heyət Rusiya sülhməramlılarının müşayiəti ilə sözügedən yataqların yerləşdiyi ərazilərə gəlsə də, hər iki istiqamətdə təxribatla üzləşib. Bu da rus sülhməramlılarının məsələlərə ikili standart münasibətidir. Monitorinqlərin baş tutmamasının əsas səbəbi məhz Rusiya sülhməramlılarının lazımi şərait yaratmaması, əksinə, bu prosesin qəsdən pozulması ssenarisində iştirakıdır.

Ekspert rəyi

Sərdar Yusifoğlu,
"Gəncliyin Elmi Mədəni İnkişafı" İctimai Birliyinin sədri

–Hazırda biz Azərbaycanın qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə Rusiya sülhməramlılarının Şuşa şəhəri yaxınlığındakı postunun yanındayıq. Aksiya başlanandan buradayıq. Biz gənclər olaraq təbii sərvətlərimizin istismarına yox deyirik. İstəyirik ki, qanunsuz istismar olunan yataqlarımıza baxış keçirmək üçün dövlət orqanlarının əməkdaşlarına, mətbuat nümayəndələrinə, ekoloqlara şərait yaradılsın. Mədəniyyət Nazirliyi bəyanat verib ki, oradakı tarixi abidələrimizin də monitorinqi aparılmalıdır. Bütün qurumların yoxlamalar aparmaları sözsüz təmin edilməlidir. Bu haqlı tələblərimizə baxmayaraq, Rusiya sülhməramlıları müvvəqqəti yerləşdikləri ərazidə bizə maneələr törədirlər. General-mayor Volkov hələ də bizə etinasızlıq, hörmətsizlik edir, gəlib suallarımızı cavablandırmır. Lakin istədiyimiz nəticəni əldə edənədək aksiyanı gecə-gündüz davam etdirəcəyik.